

# Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri keçirilir

**Azərbaycan ilə özbək xalqları arasında əlaqələrin qədim və zəngin tarixi var. Ümumtürk kimliyi, ortaq mədəni dəyərlər, əsrlərdir davam edən ədəbiyyat və sənət mübadiləsi xalqlarımızı bir-birinə daha da yaxınlaşdırıb. Bu gün iki ölkə arasında siyasi münasibətlər dövlət başçılarımızın müdrik siyasəti və şəxsi dostluqları sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.**

Ali səviyyəli qarşılıqlı səfərlər, beynəlxalq layihələrdə iştirak, bədii kollektivlərin qastrolları dərin mədəni əməkdaşlığın göstəricisidir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə iyunun 10-dan 14-dək Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Azərbaycan Mədəniyyəti Günləri ölkələrimiz arasında mədəni əlaqələrin inkişafında yeni səhifədir.

Mədəniyyət günlərinin proqramına uyğun olaraq, iyunun 11-də Özbəkistan Yazıçılar İttifaqında "Məhəmməd Füzuli və Əlişir Nəvai: ortaq ədəbi-mənəvi dəyərlərimiz" mövzusunda konfrans keçirilib. İyunun 12-də Özbəkistan Təsviri İncəsənət Qalereyasında "Sənət incilərində yaşayan Azərbaycan milli irsi" adlı sərgi təşkil olunacaq. Həmçinin Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutunda Azərbaycan Dövlət "Yuğ" Teatrının "Mənəm, mən" tamaşası nümayiş etdiriləcək.

Həmin gün özbək sənətsevərlər dahi Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettasının tamaşasını izləyəcəklər. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı bu dünyaşöhrətli əsəri Əlişir Nəvai adına Dövlət Akademik Teatrında təqdim edəcək. İyunun 13-də Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin "Qılınc və qələm" kitabının təqdimatı keçiriləcək.

Azərbaycan Mədəniyyəti Günlərinin tədbir və təqdimatları ədəbi-mədəni zənginliklərimizə həmişə maraq göstərən qardaş özbək xalqının yaddaşında bu dəfə də silinməz iz qoyacaq. Qeyd edək ki, ölkəmizin Özbəkistanda mədəniyyət günləri sonuncu dəfə 2022-ci ildə gerçəkləşib. Dost ölkə isə 2023-cü ildə Bakıda mədəni-mənəvi zənginliklərini nümayiş etdirib.

Azərbaycan.- 2024.- 12 iyun, № 123.- S.11.